**AZƏRBAYCAN ŞAHMAT FEDERASİYASI**
**BƏSTƏÇİLİK KOMİSSİYASI**

**Sədr:** İlham Əliyev. **Katib:** Elmar Abdullayev.

E-mail: **bestechi@mail.ru**

**«ŞAHMAT BƏSTƏÇİLİYİ» №26, 2023**

**Redaktor:** İlham Əliyev.
**Üz qabığının dizaynı:** Azər Rəhmanoğlu və Sabir Babayev.
**Redaksiya heyəti:** Rauf Əlövsətzadə, Salman Cavadzadə,
Elmar Abdullayev, Aqşin Məsimov, Muradxan Muradov, Şaiq Quliyev.

# «BAŞLIQLAR»

**1. Şahmat həlletməsi uğurlarımız ........................................................ 2**

**2. Şahmat bəstəçiliyi üzrə 6-cı Azərbaycan kuboku .................................. 3**

Jurnal 2003-cü ildən dərc olunur.

**© «ŞAHMAT BƏSTƏÇİLİYİ»** **© «İLHAM ƏLİYEV»**

## «Şahmat həlletməsi uğurlarımız / Chess solving succes»

**Ramil Cavadov** (İsmayıllı) – Avropa Şahmat Bəstəçiliyi Festivalı, Antalya, Türkiyə 2008, Open–turnir, 3-cü yer.
**İlham Əliyev** (Sumqayıt) – Avropa Şahmat Bəstəçiliyi Festivalı, Antalya, Türkiyə 2008, etüdlərin həlli üzrə, 1-ci yer.
**Araz Alməmmədov** (Qəbələ) – Krit, Yunanıstan, 2010, "Solvinq Şou" 1-ci yer.

**Zaur Məmmədov** (Bakı) – Dünya kuboku, Moskva, Rusiya 2012, gənclər arasında 1-ci yer.
**Zaur Məmmədov** (Bakı) – Dünya çempionatı, Kobe, Yaponiya 2012, gənclər arasında 3-cü yer.

**Aydan Hüseynzadə** (Qəbələ) – Dünya çempionatı, Batum, Gürcüstan, 2013, qadınlar arasında 2-ci yer.

**Misrətdin İskəndərov** (Sumqayıt) – Etüdlərin həlli üzrə Avropa çempionatı, Kiyev, Ukrayna, 2012, 2-ci yer.
**Misrətdin İskəndərov** (Sumqayıt) – Dünya çempionatı, Kobe, Yaponiya, 2012, gənclər arasında 2-ci yer.
**Misrətdin İskəndərov** (Sumqayıt) – Avropa çempionatı, 2014, İqalo, Monteneqro, gənclər arasında 3-cü yer.
**Misrətdin İskəndərov** (Sumqayıt) – Dünya çempionatı, Ostroda, Polşa, 2015, gənclər arasında 1-ci yer.
**Araz Alməmmədov** (Qəbələ) – Ostroda, Polşa, 2015, "Solvinq Şou" 3-cü yer.
**Rəşad Zeynallı** (Bakı) – Dünya çempionatı, Ostroda, Polşa, 2015, gənclər arasında 3-cü yer.
**Rəşad Zeynallı** (Bakı) – Avropa çempionatı, Afina, Yunanııstan, 2016, gənclər arasında 1-ci yer.

**Bəhruz Rzayev** (Bakı) – Avropa çempionatı, Afina, Yunanııstan, 2016, gənclər arasında 2-ci yer.

**Zaur Məmmədov** (Bakı) **–** Dünya çempionatı, Belqrad, Serbiya, 2016 **–** gənclər arasında 1-ci yer.
**Zaur Məmmədov** (Bakı) – Belqrad, Serbiya, 2016, "Solvinq Şou" 1-ci yer.

**Rəşad Zeynallı** (Bakı) – Dünya çempionatı, Belqrad, Serbiya, 2016, gənclər arasında 2-ci yer.

**Zaur Məmmədov** (Bakı) – Dünya kuboku, Moskva, Rusiya 2015, 1-ci yer.

**Dünya çempionatı, Bern, İsveçrə 2014** – 2-ci yer (komanda hesabında gümüş medal),
(Zaur Məmmədov, Araz Alməmmədov, Ramil Cavadov).

**Avropa çempionatı, Afina, Yunanıstan, 2016** – 2-ci yer (komanda hesabında gümüş medal),
(Araz Alməmmədov, Misrətdin İskəndərov, Rəşad Zeynallı, Bəhruz Rzayev).

## « Dünya yüzlüyündə 4 şahmatçımız »

WFCC (World Federation for Chess Composition / Dünya Şahmat Bəstəçiliyi Federasiyası) 1 aprel 2023 tarixində şahmat həllçilərinin reytinq siyahısını dərc edib.

Sevindiricidir ki, dünya həlletmə yüzlüyündə dörd Azərbaycan şahmatçısı var**: Araz Alməmmədov (Beynəlxaq usta) və Zaur Məmmədov (FIDE ustası) – 2415 balla 43-44-cü, Ramil Cavadov (Beynəlxaq usta) – 2364 balla 59-cu, Amil Abbasov isə – 2298 balla 81-ci yerdə qərarlaşıb**.

# «Şahmat bəstəçiliyi üzrə 6-cı Azərbaycan kuboku, 2023» 6th Azerbaijan Chess Composition Cup, 2023

Azərbaycan Şahmat Federasiyası və AŞF Şahmat Bəstəçiliyi komissiyasının birgə keçirdiyi altı bölmədə (#2, #3, #N, +=, H#, S#) şahmat bəstəçiliyi üzrə 6-cı Azərbaycan kubokunun son nəticələri elan olunur. Kuboka ölkəmizin 10 şəhərindən **(Bakı, Sumqayıt, Gəncə, Göyçay, Şirvan, Şabran, Qəbələ, Naftalan, Lerik, İmişli)** 20 şahmatçı 91 şahmat bəstəsi təqdim etdi. Bu kuboklarımız tarixində bir rekorddur. Bunun səbəbi çox sadədir: ilk dəfə idi ki, tərtib üzrə Azərbaycan kubokunda pul mükafatları var idi. Ümid edirik ki, gələcəkdə bu mükafatlar daha da artırılacaq.

6-cı Azərbaycan kubokunda Mübariz Səfərovdan (Cəlilabad) başqa ölkəmizin demək olar ki, bütün tanınmış şahmat bəstəçiləri iştirak etdi. M.Səfərov artıq bir neçə ildir ki, heç bir yarışlarda iştirak etmir. Onun şahmat bazasında 29 məsələsi var, onlardan ikisi FİDE Albomuna daxil olub. O, şəxsi dünya çempionatında hakimlik edib. Əlbəttə, belə istedadlı bəstəçinin yaradıcılığının inkişaf dövründə uzaqlaşması, heç də düzgün deyil. İnanırıq ki, o yenidən tərtibə geri dönəcək və bizləri yeni məsələləri ilə sevindirəcək.

6-cı kubokun bəzi statistikalarını təqdim edirəm. Ən kiçik iştirakçının 12, ən böyüyün isə 87 yaşı var. İştirakçılar arasında dörd qadın bəstəçi və şahmat üzrə iki beynəlxalq qrossmeyster, bir WCM var idi.

Ən çox bəstəni Vidadi Zamanov göndərdi. Ən çox məsələ ikigedişli bölmədə idi – 22, ən az əks-matda – 10. Ən çox iştirakçı da ikigedişli bölmədə idi – 13, ən az əks-matda – 6. Ən çox iştirakçı Bakıdan – 5 nəfər və Sumqayıtdan idi – 4 nəfər.

Etüd bölməsində bütün qaliblər Bakıdan idi, digər heç bir bölmədə paytaxt şahmatçıları qalib adını qazana bilmədilər. Yalnız bir nəfər iki bölmədə (#2, H#) qalib oldu – Kənan Vəlixanov. Araz Alməmmədov (#3 – 1-ci yer, #N – 3-cü yer, S# – 2-ci yer) və Vidadi Zamanov (#2 və #3 – 3-cü yer, H# – 2-ci yer) üç, Elmar Abdullayev (#N – 1-ci yer, #3 – 2-ci yer), Cahangir Nifdaliyev (S# – 1-ci yer, H# – 3-cü yer) və Salman Cavadzadə (#N – 2-ci yer, S# – 3-cü yer) iki mükafat qazanıb.

Hamıya uğurlar arzu edirik və yeni yaradıcılıq uğurları diləyirik!

**Xatırladaq ki, 6-cı Azərbaycan kubokunun bağlanışı, 24-25 iyun Sumqayıt şəhərində keçiriləcək Şahmat həlletməsi 42-ci Azərbaycan çempionatında baş tutacaq.**



# Şahmat bəstəçiliyi üzrə 6-cı Azərbaycan kubokunun ƏSASNAMƏSİ

**1.** Məqsəd və vəzifələr:
- Şahmat incəsənətinin təbliği;
- Şahmat bəstəçiliyi üzrə ölkənin ən güclü şahmatçılarını müəyyən edilməsi;
- Milli komandanın seçimı;
- Şahmat bəstəçilərinin yarış təcrübələrinin, ustalıq səviyyələrinin, idman dərəcələrinin artırılması.

**2.** Yarışın təşkilatçıları Azərbaycan Şahmat Federasiyası (AŞF) və AŞF Şahmat Bəstəçiliyi Komissiyasıdır (AŞF ŞBK).

**3.** Yarışlar qiyabi olaraq 05.01.2023 – 25.06. 2023-cü il tarixləri arasında keçirilir.

**4.** Yarışlar 6 bölmə üzrə (ikigedişli – #2, üçgedişli – #3, çoxgedişli – #N, etüdlər – +=, yardımmat – H#, əks-mat – S#) keçirilir.

**5.** Yarışda istənilən şahmatçı iştirak edə bilər. Hər müəllif hər bölməyə üçdən artıq olmayaraq orijinal (heç yerdə dərc olunmamış) məsələ və ya etüd göndərə bilər.

**6.** Hər hansı bir bölmədə bəstələrin sayı üçdən az olarsa, AŞF Şahmat Bəstəçiliyi komissiyasının qərarı ilə həmin bölmə üzrə yarış ləğv edilə bilər.

**7.** Bəstələr hakimlərə anonim olaraq, yəni müəlliflər göstərilmədən göndəriləcək.

**8.** Anonimliyi qorumaq üçün yarışların hakimləri barədə əlavə məlumat veriləcək.

**9.** Yarışın elan tarixi: 17.01.2023.

**10.** Şahmat bəstələrinin yarışın direktoruna son göndəriş tarixi – 30.04.2023.

**11.** Hakimlərin nəticələri direktora son göndəriş tarixi: 27.05.2023.

**12.** İlkin nəticələrin elanı: 30.05.2023.

**13.** İradların son qəbul tarixi: 10.06.2023.

**14.** Son nəticənin elan edilməsi: 15.06.2023.

**15.** 6-cı Azərbaycan kubokunun direktoru: İlham Əliyev (Beynəlxalq hakim).

**16.** Məsələ və etüdləri aşağıda göstərilən elektron ünvana və ya WhatsApp-a göndərmək olar.
E-mail: **bestechi@mail.ru** Tel: 050 515 40 99.

**17.** Hakimlərlə əlaqə yalnız çempionatın direktoru vasitəsi ilə aparılacaq. Hakimlərin kimliyi yalnız nəticələr elan edildikdən sonra açıqlanacaq.

**18.** Yarışda hakimlər yalnız qalib 1-3-cü yerləri müəyyən edəcək. Təltifə daxil olmayan digər məsələ və etüdlər müəlliflərə qaytarılacaq və onlar həmin bəstələrdən son nəticələrin elan edilməsindən sonra, digər yarışlarda istifadə edə bilərlər.

**19.** Yarışların ilkin nəticəsi iştirakçıların elektron ünvanına göndəriləcək. Son nəticə isə Azərbaycan Şahmat Federasiyasının **https://asf.org.az** saytında və «Şahmat bəstəçiliyi» jurnalında dərc olunacaq. Yalnız bundan sonra kubokun nəticələrini paylaşmaq olar.

**20.** Hər bölmədə ilk üç yeri tutan qaliblərə diplomlar və pul mükafatları təqdim ediləcək.

**21.** Kubokun bağlanışı 24-25 iyun Şahmat Həlletməsi 42-ci Azərbaycan çempionatında olacaq.

# «6-cı Azərbaycan kubokunun mükafat fondu»

| № | BÖLMƏ | 1-ci yer | 2-ci yer | 3-cü yer | ÜMUMİ |
|---|---|---|---|---|---|
| 1 | **İkigedşli (#2)** | 50 AZN | 30 AZN | 20 AZN | 100 AZN |
| 2 | **Üçgedişli (#3)** | 50 AZN | 30 AZN | 20 AZN | 100 AZN |
| 3 | **Çoxgedişli (#N)** | 50 AZN | 30 AZN | 20 AZN | 100 AZN |
| 4 | **Etüdlər (+=)** | 50 AZN | 30 AZN | 20 AZN | 100 AZN |
| 5 | **Yardımmat (H#)** | 50 AZN | 30 AZN | 20 AZN | 100 AZN |
| 6 | **Əks-mat (S#)** | 50 AZN | 30 AZN | 20 AZN | 100 AZN |

# «6-cı Azərbaycan kubokunun iştirakçıları»

| № | SOYADI, ADI | ŞƏHƏR | BÖLMƏLƏR | | | | | | ÜMUMİ |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | #2 | #3 | #N | += | H# | S# | |
| 1 | Abdullayev, Süleyman | Bakı | 3 | | | | | | 3 |
| 2 | Abdullayev, Elmar | Şirvan | 1 | 2 | 2 | 1 | 2 | | 8 |
| 3 | Alməmmədov, Araz | Qəbələ | 3 | 1 | 2 | 2 | 3 | 3 | 14 |
| 4 | Alməmmədov, Samir | Qəbələ | | | | 1 | 1 | 1 | 3 |
| 5 | Bacarani, Ülvi | Bakı | | | | 1 | | | 1 |
| 6 | Cavadzadə, Salman | Gəncə | 2 | 3* | 3* | | 3 | 2 | 13** |
| 7 | Əlizadə, Fikrət | Bakı | | | 1 | | | | 1 |
| 8 | Əliyev, İlham | Sumqayıt | | 1* | 1* | | | | 2* |
| 9 | Hüseynzadə, Aydan | Qəbələ | 1 | | 1 | | 1 | | 3 |
| 10 | İbrahimov, Rəsul | Bakı | | | | 1 | | | 1 |
| 11 | Kəlbiyev, İmran | Lerik | 1 | | 1 | | 3 | | 5 |
| 12 | Qasımov, Elmar | Bakı | 1 | | | 1 | | | 2 |
| 13 | Məlikova, Ülviyyə | Sumqayıt | | | | 1 | | | 1 |
| 14 | Nifdaliyev, Cahangir | İsmayıllı | 1 | | | | 3 | 1 | 5 |
| 15 | Ruzicəng, Nərminə | Naftalan | 3 | | | | | | 3 |
| 17 | Rzalı, Səbinə | Sumqayıt | | 1* | | | | | 1* |
| 16 | Səfərəliyev, Ramil | Şabran | 1 | 1 | | 1 | | | 3 |
| 17 | Səfərəliyev, Elnur | Şabran | 1 | 1 | | | | | 2 |
| 18 | Şəkərəliyev, Elçin | Sumqayıt | | | | 1 | | | 1 |
| 19 | Vəlixanov, Kənan | İmişli | 1 | 2 | 1 | | 2 | 1 | 7 |
| 20 | Zamanov, Vidadi | Göyçay | 3 | 3 | 1 | 3 | 3 | 2 | 15 |
| | | | | | | | | | |
| | **ÜMUMİ** | 10 | 22 | 13 | 12 | 13 | 21 | 10 | 91 |

## «6-cı Azərbaycan kubokunun hakimləri»

| № | BÖLMƏ | HAKİM | ÖLKƏ |
|---|---|---|---|
| 1 | **İkigedişli (#2)** | Rauf Ələvsətzadə | ABŞ |
| 2 | **Üçgedişli (#3)** | Aleksandr Melniçuk | Rusiya |
| 3 | **Çoxgedişli (#N)** | Aleksandr Melniçuk | Rusiya |
| 4 | **Etüdlər (+=)** | İlham Əliyev | Azərbaycan |
| 5 | **Yardımmat (H#)** | Abdelaziz Onkoud | Mərakeş |
| 6 | **Əks-mat (S#)** | Andrey Selivanov | Rusiya |

## «6-cı Azərbaycan kubokunun qalibləri»

| Bölmə | 1-ci yer | 2-ci yer | 3-cü yer |
|---|---|---|---|
| **A – İkigedişli (#2)** | Kənan Vəlixanov (İmişli) | Süleyman Abdullayev (Bakı) | Vidadi Zamanov (Göyçay) |
| **B – Üçgedişli (#3)** | Araz Alməmmədov (Qəbələ) | Elmar Abdullayev (Şirvan) | Vidadi Zamanov (Göyçay) |
| **C – Çoxgedişli (#N)** | Elmar Abdullayev (Şirvan) | Salman Cavadzadə (Gəncə) | Araz Alməmmədov (Qəbələ) |
| **D – Etüdlər (+=)** | Rəsul İbrahimov (Bakı) | Ülvi Bacarani (Bakı) | Elmar Qasımov (Bakı) |
| **E – Yardımmat (H#)** | Kənan Vəlixanov (İmişli) | Vidadi Zamanov (Göyçay) | Cahangir Nifdaliyev (İsmayıllı) |
| **F – Əks-mat (S#)** | Cahangir Nifdaliyev (İsmayıllı) | Araz Alməmmədov (Qəbələ) | Salman Cavadzadə (Gəncə) |












# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023»
## İKİGEDİŞLİ (#2)
## Hakim: Rauf Ələvsətzadə (ABŞ)

Yer tutmayan 4, 14, 15, 16, 17, 18, 19, 21 saylı məsələlərdə məzmun azdır.

**22. Kənan Vəlixanov (İmişli)**



#2 11+11

**5. Süleyman Abdullayev (Bakı)**



#2 6+6

**10. Vidadi Zamanov (Göyçay)**



#2 10+6

**№22. Kənan Vəlixanov (İmişli)**. 1...e5 2.♗xd5#, 1...♖h~ 2.♘xg5#, 1...♘b~ 2.♘(x)d2#. 1.♕c1? (2.♘g3, ♘f2# A/B), 1...♖xh3 2.♘f2# A, 1...♕a7 2.♘g3# B 1...♘d2!, 1.♕c5? 2.♘f2# (A) 1...♖d4!, 1.♗xc7? 2.♘g3# (B), 1...♖xh3 2.♘xg5# 1...e5!, 1.♗e5? (2.♘g3#) 1...♖xh3!. Həll: **1.♗e8!** (2.♗g6#), 1...♘e3 2.♘f2# (A), 1...♘f4 2.♘g3# (B), 1...♖h6 2.♘xg5#. Mövzuların kombinasiyası: Neva, Barnes, Rudenko. Çağdaş ikigedişli.

**№5. Süleyman Abdullayev (Bakı)**. 1...a5 2.♗b5# [C]. 1.♘xe4? [2.♘d2, ♖d4#], 1...♖d5 / xe4 2.♗(x)d5# 1...♗c5! [a], ♖c5! [b], 1.♘~? [2.♖d4#] 1...♗c5! [a], 1.♘b7? [2.♖d4#], 1...♗c5 [a] 2.♘a5# [A] 1...♖c5! [b], 1.♘d7? [2.♖d4#], 1...♖c5 [b] 2.♘b6 [B]# 1...♗c5! [a]. Həll: **1.♘xa6!** [2.♖d4#], 1...♗c5 [a] 2.♗b5# [C], 1...♖c5 [b] 2.♖b4# [D]. Başqa bir olduqca çağdaş ikigedişli. Müəllif WCCT-11, Qrimşou və Xarkov mövzularının mövcudluğunu göstərir.

**№10. Vidadi Zamanov (Göyçay)**. 1...♘a7 2.♗b6#, 1...♗f8 2.fxe5#. 1.♕xd6? – 2.♕xe5#, 1...♘xd6 2.♗b6#, 1...♗xd6 2.fxe5#, 1...cxd3 2.♖e4# 1...c3!. Həll: **1.♗xd6!** – 2.♗xe5#, 1...♘xd6 2.♕a7#, 1...♗xd6 2.fxe5#, 1...cxd3 2.♕a4#, 1...♗f6 2.♗c5#. Matların və müdafiənin yaxşı formada dəyişməsi.



# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023»
# ÜÇGEDİŞLİ (#3)
# Hakim: Aleksandr Melniçuk (Rusiya)

İlk öncə 6-cı Azərbaycan kubokunun mükafatçılar sırasına daxil olmayan üçgedişli məsələləri barədə.

**№1. Salman Cavadzadə, İlham Əliyev və Səbinə Rzalı** (♔f4/♔f6). Şaha olan birinci gediş, xananı tutan birinci gediş, ayrıca əkizləri düzərkən İKİ yerdəyişmə icra etmək xoş qarşılanmır.
**№3. Vidadi Zamanov** (♔f6/♔d4). Populyar üslubda yaxşı məsələ, hər hansı bir bəstə sintezini bir yana qoyaq, birləşdirici ideya və ya mövzu olmadan alınmır. Belə tapşırıqlara da ehtiyac var! Amma bundan artıq heç nəyə iddia edə bilməzlər.
**№4. Vidadi Zamanov** (♔c2/♔d4). 1-ci gediş «e3» atın iki qara piyadanın zərbəsi altından qaçmasından başqa bir şey deyil.
**№6. Elmar Abdullayev** (♔h7/♔d5). Bu məsələyə baxış zamanı hakim fikrə getdi: 1…♕a6 müdafiə gedişi tematikdir yoxsa yox? Və mən bu qənaətə gəldim ki, bu, tematikdir, əlavə və ya texniki deyil, çünki biz bəzən məcburi olmayan qara cavabları belə adlandırırıq. Əgər belədirsə, onda 2…♖e6 → 3.♗(♕)xe6#-dan sonra mat dualı, tərtibdə ağlabatan mənfi cəhət kimi görünür. Təəssüf! Çünki yaxşı məsələdir!...
**№8. Kənan Vəlixanov** (♔g2/♔d4). Müəllif mövzunu qara şahın ulduzcuğu adlandırıb. Amma 1...♔c3, ♔c5, ♔e5 cavabları birinci gedişdə görünürsə, 1...♔xe3 ikinci gedişdə görünür. Həmçinin, 1...♔e5 variantında dual var ki, onu "tematik olmayan" adlandırmaq olmaz.
Ya təhlükəyə daxil olmayan üçüncü mat lazımdır, ya da heç olmasa elan edilmiş final matların sadə ayrılmasını görməliyik. Qərar: elan edilmiş təhlükələrdən sonra mat finallarının natamam bölünməsi dualdan başqa bir şey deyil. Beləliklə, elan edilmiş bütün çoxsaylı mövzularla, məsələ yüksək fərqlənməyə iddia edə bilməzdi.
**№9. Kənan Vəlixanov** (♔h2/♔d3). 1…e3 2.♘d2-dən sonra biz üç mat təhlükəsi görürük: 3. ♕c3#, 3.♘c1#, 3.♘f4#. Təhlükə siyahısına daxil edilməyən digər matların arzuolunan mövcudluğunu (şahmat bəstəçiliyinin qanunlarına görə) qeyd etməmək şərtilə, elan edilmiş hər üç matın ayrılması, ən azı haradadır? Məhz o zaman məsələ təltif siyahısına düşərdi (Bu üçgedişliyə olan qərar təqdim olunan 8 saylı məsələ ilə eynidir).
**№10. Salman Cavadzadə** (♔a8/♔e5). Birinci gedişdən sonra məsələnin üç təhlükəsi var. İkigedişlidə belə olur, məqbuldur; burada isə – ciddi deyil və həm də, heç bir mövzu olmadan.
**№11. Salman Cavadzadə** (♔a2/♔c4). Dərhal deməliyəm ki, bu məsələ üçüncü yerə namizəd idi, amma qaliblərin sayına daxil olmağa nə mane oldu: mövqedə «h6» əlavə qara topun olması, əlbəttə ki, hakim sadəcə olaraq qüsuru qeyd etməklə, son nəticədə topu götürərək, buna icazə verə bilərdi. Amma 1...♘xb5 və 1...♕d4-dən sonra ikinci gedişin – 2.♕c6+ təkrarı cəlbedici görünmür.
**№12. Ramil Səfərəliyev** (♔g5/♔e5). Suqsvanq üçün yaxşı məsələdir, lakin məzmuna xüsusi diqqət yetirilməyib.







# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023» ÜÇGEDİŞLİ (#3)

**7. Araz Alməmmədov (Qəbələ)**
6-cı Azərbaycan kuboku, 2023
1-ci yer



#3 7+9

**5. Elmar Abdullayev (Şirvan)**
6-cı Azərbaycan kuboku, 2023
2-ci yer



#3 4+4

**2. Vidadi Zamanov (Göyçay)**
6-cı Azərbaycan kuboku, 2023
3-cü yer



#3 9+10

**№7. Araz Alməmmədov (Qəbələ).** 1.♕g8? ♖e6!, 1.♕d1? [2.♕c1 – 3.♖a2#], 1...♕xa5 2.♕xb3+ ♖xb3 3.♖a2#, 1...♗xd1, 1...♖c4 2.♘xb5+ ♕xb5 3.♗xb4# 1...♖c3!. Həll: **1.♕d5**! [2.♖a2+! bxa2 3.♕xa2#], 1...♖c4 2.♘xb5+ ♕xb5 3.♗xb4#, 1...♗c4 2.♗xb4+ ♕xb4 3.♘xb5#. Qrimşou örtməsi fonunda gizli (qara vəzir vasitəsilə) ağ yarım batareyanın oyunu. Növbələnmə. Yanlış izdə 1.♕d1? oyunun ixtiyari dəyişməsi var, lakin 1…♖c4 2.♘b5+ şaxələnməsində oyunun təkrarlanması xoşagəlməzdir – variant həllin fazasında təkrarlanır. İrad bu bəstənin fərqlənməsinə təsir göstərmir, çünki məsələ əla yerinə yetirilmişdir!

**№5. Elmar Abdullayev (Şirvan). 1.♕a3!** 1…fxg5 2.♕e3+ ♔f1 3.♘d2# – düzgün mat, 2…♔d1 3.♕d2# – düzgün mat, 1…♔d1 2.♕f3+ ♔e1 3.♗d2# – düzgün mat, 2…♔c2 3.♘a3# – düzgün mat.
Hartong mövzusu və Kojakin mövsusu. Dörd düzgün mat. Hakim uzun müddət, 1-ci və 2-ci yerə hansı məsələləri qoymaq lazımdır deyə düşündü: 7-ci yoxsa 5-ci? Hər ikisi yüksək keyfiyyətlə, gözəl şəkildə, ən tələbkar həllçi üçün və şahmat bəstəçiliyi qanunlarına uyğun olaraq hazırlanmışdır, lakin bu üçgedişli məsələnin nisbətən aşağı yer tutmasına həll variantının artıq təhlükədə "səslənməsi" rol oynadı. Sonradan düzgün matların görünüşü ilə o, dəyişdirilsə də, qavrayışın bu "mənfisi" təltifə təsir etdi.

**№2. Vidadi Zamanov (Göyçay).** 1...cxd5 2.♕xe7+ ♔d4 3.♕e3#, 1...♘xd5 2.♗d7! – 3.♖xf5#. Həll: **1.♗f7!** – 2.♕xe7+ ♔d4 3.♕e3#, 1...♘cxd5 2.♖e1! – 3.♖xe2#, 1...♘exd5 2.♖a8! – 3.♖e8#, 1...♘e4 2.f4+ gxf3 e.p. 3.♘xf3#, 1...♘d1 2.dxc6+ ♘d5 3.♕xd5#, 1...♘d7~ 2.exf6+ ♘e5 3.♕xe5#, 1...e1♕ 2.♖xe1+ ♘e2 3.♖xe2 #, 2...♘e4 3.♖xe4#. «e7» atın qara korreksiyası. Obstruksiya. Atlar ilk gedişləri ilə «d5» xanasında özlərini bağlayırlar. Qara atların bağlaması ilə matlar – Nietvelt. Hakim: Nietvelt mövzusu şahmat bəstəçiliyində həmişə yüksək qiymətləndirilir. Məsələ dəyərləndirildi! Lakin onun daha yüksək qalxmasına bu nöqsanlar mane oldu: vuruşlu matlar, həmçinin – ağların ikinci gedişindən sonra iki müdafiəsiz mat (♘~xd5-dən sonra).

İddia olunan sələflə bağlı təqdim olunan məsələdə (www.yacpdb.org/#58342) – qaralar «d6» xanasında müxtəlif daşlarla müdafiə olunur (top, fil və iki at). Bununla onlar özlərini bağlamaya salır. Əla məsələdir!

Azərbaycan kubokuna göndərilən məsələdə isə mövzu “bir az” fərqlidir: qara at korreksiyası. Aydın görünür ki, ♘e7 «d5» (xəyalilik oyunun dəyişməsi daxil olmaqla – iki dəfə!) və deyək ki, «g6 (c8)»

üzərində, ♘c3 isə: «d5, e4, d1» (və ya deyək ki, «a4»-də – təhlükə həyata keçirildikdə) xanalarında oy-nayır. Təbii ki, öz-özünü bağlanma məsələsi daha yaxşıdır, lakin burada heç bir sələfin "qoxusu" olma-ması da təbiidir. Hər kəs öz işini edib.

## «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023» ÇOXGEDİŞLİ (#N) Hakim: Aleksandr Melniçuk (Rusiya)

Təlifə daxil edilməyən çoxgedişlilər (qeydlər – şərhlər).

**№1. Salman Cavadzadə və İlham Əliyev** (♔f4/♔g8). Patdan çıxarılma. Kiçik də olsa, amma çatış-mazlıqdır, çünki, ağların ilk gedişi asanlıqla müəyyən edilir. Oyun azdır.
**№2. Fikrət Əlizadə** (♔c1/♔h8). Həlldə təhlükə + variant keçir. Bu, dördgedişli üçün azdır.
**№3. Vidadi Zamanov** (♔f6/♔d5). Tək qara şahlı miniatür. Filin gözəl oyununa baxmayaraq, son düz-gün mat olmadan, fərqlənməyə iddia edə bilməz, çünki bu kifayət deyil.
**№5. Elmar Abdullayev** (♔a1/♔a8). Gözəl məzmun, ancaq "haçalanmış" təhlükə işləri korladı. Bu, hətta dual deyil, ancaq yenə də nöqsandır.
**№6. Araz Alməmmədov** (♔h6/♔d8). Lövhənin bütün qıraq künclərini ziyarət edən qara vəzir ilə məzmun gözəldir! Ancaq təəssüf ki, ikiqat təhlükə səbəbindən mat dualı var: 4...♕h8+ 5.♔xf8 – 6.♖c8# (♖f8#).
**№8. İmran Kəlbiyev** (♔c6/♔e5). Əlavə həll: 1.♖f1! g6 2.♖f4 ♔d4 3.e5#, 1...♔d4 2.e5 – 3. ♖d1, ♖f4#. Bu daha çox üçgedişlidir, nəinki çoxgedişli.
**№9. Aydan Hüseynzadə** (♔b8/♔d7). Yaxşı dördgedişli, amma təəssüf ki, həllin "vacib olmayan" şaxələnməsində dual var. Bu məsələ hər hansı bir digər yarışda iştirak etsəydi, çox güman ki, tərifnamə qazanacaqdı, ancaq cəmi üç mükafatın verildiyi kubok yarışında bəstə qeyd olunmamış qalır.
**№10. Salman Cavadzadə** (♔a4/♔f1). Nöqsanlı mövqenin qurulması: başlanğıcda (xəyali) ağ şah üçün şahlar var (1…♗xc2 və ♗d7), bunlardan sonra dörd gedişə mat yoxdur. Əhəmiyyətli quruluş qüsuru.
**№12. Kənan Vəlixanov** (♔e3/♔g4). Patdan çıxarılma – bu zaman 1.♘d5?-i baş plan adlandırmaq olmaz. 1.♔d4! mövqedə yeganədir. Bütün bunlar çoxgedişliyə fərqlənmə şansı vermir.

## «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023» ÇOXGEDİŞLİ (#N)

**4. Elmar Abdullayev (Şirvan)**
6-cı Azərbaycan kuboku, 2023
1-ci yer



#8 11+10

**11. Salman Cavadzadə (Gəncə)**
6-cı Azərbaycan kuboku, 2023
2-ci yer



#4 13+8

**7. Araz Alməmmədov (Qəbələ)**
6-cı Azərbaycan kuboku, 2023
3-cü yer



#9 9+4

**№4. Elmar Abdullayev (Şirvan).** 1.♗e1! – 2.♗c3 cxb4 3.♗xb4+ c5 4.♗c3 c4 5.♗b4+ c5 6.♗c3 – 7.♗e5# (Erlenin dolayı manevri ağ qaraxanalı fillə ara gedişi funksiyası ilə). 1...♗d7 2.♗c3 cxb4 3.♗xb4+ c5 4.♗c3 c4 5.♗b4+ c5 6.♗c3 ♗xf5 7.♗e5+ (Erlenin dolayı manevri ağ qaraxanalı fillə ara gedişi funksiyası ilə) 7…♔e6 8.gxf5#, 1...♖xg4 2.fxg4 ♗d7 3.♗c3 cxb4 4.♗xb4+ c5 5.♗c3 c4 6.♘c6 ♗xf5 7.gxf5 (ağ piyadanın dolayı manevri: f3 → g4 → f5) 7…♔c5 8.♗b4# – düzgün mat.

Erlenin dolayı manevri qara xanalı fillə gözəl amplitudalı kəfkir gedişlərinin köməyi ilə əldə edilir. Dəyərli olan odur ki, səkkizgedişlidə iki tam hüquqlu variant, tematik uzun təhlükə, həmçinin ağ piyadanın qeyri-adi dolayı manevri var. Bu, filin dolayı manevri ilə birlikdə son dərəcə gözəl görünür. Məzmun o qədər qeyri-standartdır ki, hətta sual yaranır: filin dolama yolu (tematik gedişlərin müxtəlif funksiyaları ilə) + piyadanın dolama manevri = **şahmat bəstəçiliyində belə məzmun ilk dəfə deyilmi?!** Düzgün mata sahib olmaq məsələnin başqa bir gözəl üstünlüyüdür. Kubokda qeyd-şərtsiz birinci yer!

**№11. Salman Cavadzadə (Gəncə).** 1.♘c3? a3!. Həll: **1.♞a3!** ♔d4 2.♘b5+ ♔e5 3.♖f8! a3 4.♘f3#, 1...♔xd6 2.♘b5+ ♔c6 3.♖b8! d6 4.♗e8#, 3...a3 4.♖b6#, 2...♔e7 3.♖f1 e5 4.♖e8#, 3...d6 4.♖f7#; 1...♔f6 2.♖f8+ ♔g7 3.♖af1 e5 4.♖1f7#, 2...♔g5 3.♘h3+ ♔h4 4.♖f4#; 2...♔e5 3.♘b5 a3 4.♘f3#, 1...♔f4 2.♘f3! e5 3.♖h1 ♔g4, e4 4.♖h4#. Qara şahın ulduzu. Aydın, çoxsaylı variantlarla və gözəl! Çox kiçik bir qüsur: 2.♘b5+ gedişinin təkrarlanması.

**№7. Araz Alməmmədov (Qəbələ).** 1.♘d2 ♔e5 2.♘f3+ ♔d6 3.♘g5 ♔e5 4.♘f7+ ♔d4 5.♘d8 ♔e5 6.♘c6+ ♔d6 7.♘f6 ♔c7 8.a6! a1♛ 9. ♘e8#. Doqquzgedişli açıq-aydın həllçi zövqü üçün tərtib edilib və bu tam alınıb! Atın «c4»-dən «c6»-ya gözəl oyunu, ardınca başqa bir atın dəstəyi və «a5» piyadanın gözlənilməz köməyi! Finalda – düzgün mat. Amma mən hər hansı bir ilkin plan görmək istərdim.

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023» ETÜDLƏR (+=)

# Hakim: İlham Əliyev (Sumqayıt)

Etüd bölməsində 10 müəllifdən 13 etüd daxil olmuşdu. Etüdlər arasında maraqlı ideyalar var idi, ancaq çox heyif ki, onların tərtibatında böyük qüsurlar var. Bir sıra etüdlər təhlil xarakterli idi ki, onlar da məndə təəssürat yaratmadı. Ən böyük problem oyunun giriş hissəsi ilə bağlıdır. Müəlliflər giriş oyununda çoxsaylı dəyişmələrə, necə deyərlər "qarşılıqlı şapalaqlamalara" üstünlük verirlər, bu isə çox kobud və yolverilməzdir.

**№3.** Elçin Şəkərəliyev (♔g1/♔f6). Çox sadədir, zirvə gedişi çatmır.
**№5.** Vidadi Zamanov (♔e2/♔g7). Giriş çox kobuddur, ilk 6 gedişdə 11 vuruş var. Həmçinin, əlavə həll var: 1.♘xd6! ♘xd6 2.♖b4 ♕a6+ 3.♔f3 ♕xa7 4.exd6 ♕a3+ 5.♗e3 ♕xb4 6.♘e7 və ağlar qalib gəlir.
**№6.** Vidadi Zamanov (♔f2/♔c3). Kobud giriş oyundan sonra darıxdırıcı sonluq yaranır.
**№7.** Vidadi Zamanov (♔b7/♔d6). Vuruşla olan ilk gedişə göz yummaq olar, lakin hərəkətsiz vəzirin vurulması böyük günahdır.
**№8.** Araz Alməmmədov (♔a4/♔c8). Kobud dəyişmələr, hərəkətsiz daşlar, bunlar əlbəttə ki, etüdü dəyərdən salır.
**№9.** Araz Alməmmədov (♔c6/♔a7). Maraqlı sxem olsa da, ilk dörd gediş çox kobud dəyişmələrlədir.
**№10.** Samir Alməmmədov (Şg5/Şc6). Maraqlı ideyadır, ancaq tərtibat çox sadədir. Ağ atın «c7» xanasında əks-səda qurbanla ikinci variantı əlavə etmək olsa, əla etüd alınar.
**№11.** Ülviyyə Məlikova (♔c6/♔f7). Giriş kobuddur və 10-cu gedişdə kiçik duallar var.
**№12.** Elmar Abdullayev (♔c6/♔f7). Giriş kobuddur.
**№13.** Ramil Səfərəliyev (♔d6/♔c8). Giriş kobuddur.

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023» ETÜDLƏR (+=)

**4. Rəsul İbrahimov (Bakı)**
6-cı Azərbaycan kuboku, 2023
1-ci yer



Uduş (+) 6+7

**2. Ülvi Bacarani (Bakı)**
6-cı Azərbaycan kuboku, 2023
2-ci yer



Uduş (+) 3+3

**1. Elmar Qasımov (Bakı)**
6-cı Azərbaycan kuboku, 2023
3-cü yer



Uduş (+) 6+3

**№4. Rəsul İbrahimov (Bakı)**. **1.d8♘+!** [1.d8♕? c1♕=] **1...♔d7 2.♔xc2 ♔xd8 3.g3!** [3.♔d3? f4 4.g3 fxg3 5.♔xe3=] **3...♔e7 4.♔d3 ♔f6 5.♔e2!!** [5.♔xe3? g5! 6.hxg5+ ♔xg5 7.♔f3 ♔g6! 8.♔f4 ♔f6 9.c4 ♔e6 10.c5 ♔d5 11.♔xf5 ♔xc5 12.♔g5 ♔b4 13.♔xh5 ♔xa4 14.g4 ♔b4 15.g5 a4=] **5...g5 6.♔xe3 gxh4 7.gxh4 ♔e5 8.c4!** [8.♔f3? ♔d5 9.♔f4 ♔c4 10.♔xf5 ♔b3! 11.♔g5 ♔xa4=] **8...f4+ 9.♔f3** [9.♔d3? f3 10.♔e3 f2 11.♔xf2 ♔d4=] **9...♔d4 10.♔xf4 ♔xc4 11.♔g5 ♔b4 12.♔xh5** 1–0. At çevrilməsi və ağ şahın vuruşdan imtina ilə çox gözəl gedişli piyada etüdü. Ağların 8-ci gedişindən sonra simmetrik və qarşılıqlı suqsvanq mövqesi yaranır: yəni gediş kimindiirsə, o tərəf uduzur. Beynəlxalq qrossmeysterimizin etüd bəstəçiliyində ilk və uğurlu addımı!

**№2. Ülvi Bacarani (Bakı)**. **1.a6 ♖b8 2.a7 ♖a8 3.♔d5!!** [3.♔c6? ♔e4!] **3...♔g4** [3...♔f4 ♖f2+ ♔e3 4.♖xf7] **4.♖a4+!** [4.♔c6? f5=] **4...♔g5 5.♔c6 f5 6.♔b7 ♖e8 7.a8♕ ♖xa8 8.♖xa8** [8.♔xa8? f4=] 1-0, **1...♖a7 2.♔b6 ♖a8 3.♖f2+! ♔e6 4.♖c2** (yerdəyişmə: 4.♔b7) **4...♔d5 5.♔b7 ♖h8 6.♖c8 ♖h1 7.♖d8+! ♔e4 8.a7 ♖a1 9.♖e8+! ♔d5 10.♖f8! ♖b1+ 11.♔c8!** (11.♔c7 ♖a1 vaxt itkisi) **11...♖a1 12.♖xf7** 1-0. Daha bir beynəlxalq qrossmeysterimizin iki variantlı maraqlı miniatür top etüdü. Ağların önləyici və uzaqgörən 3-cü gedişi etüdün yaraşığıdır, 4-cü gedişdə ağ topun ara şah elan etməsi, qara şahı öz piyadasına yardım imkanlarından məhrum edir. İkinci variantda 4-5-ci gedişlərdə yerdəyişmə olsa da, orada da ağ topun şahları ilə maraq doğuran anlar var.

İlk iki etüd arasında seçim etməli idim. Top sonluğu maraq doğursa da, daha çox təhlil üslubundadır, ona görə də mən gözəlliyə üsütünlük verdim.

**№1. Elmar Qasımov (Bakı)**. **1.h6 ♖h7 2.d7 ♖xd7 3.♗xd7 a2 4.♗e6+!** [Tematik oyun: 4.♗c6+? ♔xc6 5.d5+ ♔xd5 6.♗d4 ♔xd4 7.h7 və əsas oyunda olduğu kimi, ancaq 5...♔xb6! və qaralar qalib gəlir] **4...♔xe6 5.d5+!** [5.h7?? a1♕ 6.h8♕ ♕h1+–+] **5...♔xd5 6.♗d4! ♔xd4 7.h7 ♔d3** [Əsas: 7...a1♕ 8.h8♕+ ♔d3 9.♕xa1 +-] **8.h8♕ ♔c2 9.♕a1!** 1–0. İki filin qurbanı və xətt zərbəsi. Etüdün motivləri məlum olsa da, oyun maraqlı və cəlbedicidir.

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023»
# YARDIMMAT (H#)
# Hakim: Abdelaziz Onkoud (Mərakeş)

**15. Kənan Vəlixanov (İmişli)**
6-cı Azərbaycan kuboku, 2023
1-ci yer



H#3 2 həll 6+11

**6. Vidadi Zamanov (Göyçay)**
6-cı Azərbaycan kuboku, 2023
2-ci yer



H#3 2 həll 4+7

**20. Cahangir Nifdaliyev (İsmayıllı)**
6-cı Azərbaycan kuboku, 2023
3-cü yer



H#2 6 həll 6+8

**№15. Kənan Vəlixanov (İmişli)**. 1.♖xa8! ♕h5 (♕h8?) 2.♔d4 ♕f3 3.♖bxc6+ ♘xc6#, 1.♖xb8! ♕h8 (♕h5?) 2.♔e4 ♕c3 3.♖axc6+ ♗xc6#. Qeyri-adi başlanğıc mövqe. Üçgedişli tapşırıqda azad ağ vəzir və digər ağ daşlar (oyuna qoşularaq yarım gedişlə qara şaha hücum edə bilər) qara şahdan uzaqda yerləşir. Altıncı üfüqi xətdə nəzarəti zəiflətmək üçün, toplardan biri getməlidir. Bu, yalnız ağ daşı (Hideaway) götürməklə mümkündür. Vəzirin manevrindən sonra şahın mat alacağı xanaya gəlmək imkanı var. Qarşılıqlı vuruşlar, Zilahi, müxtəlif fiqurlarla eyni xanadan mat.

**№6. Vidadi Zamanov (Göyçay)**. 1.♘xc7! (♗xc7?) ♔xh5 2.♔f4 ♔g6 3.♔g4 ♖xc4#, 1.♗xb4! (♘xb4?) ♔xg3 2.♔g5 ♔f3 3.♔h4 ♗d8#. Çumakov mövzusu. Qara şahın ilk gedişinin anti-dual seçimi ilə Zilahi mövzusu. Meredit iki düzgün mat ilə (müəllif).

**№20. Cahangir Niftalıyev (İsmayıllı)**. 1.♗xc3 ♕xc3+ 2.♔e4 ♘f6#, 1.♖xd5 ♕xd5+ 2.♔e3 ♘d1#, 1.♖xb6 ♕xb6+ 2.♔e5 ♕f6#, 1.♔d3 ♕a4 2.♔d2 ♕d1#, 1.♔c4 axb4 2.♔b3 ♕xa2#, 1.♔c5 b7 2.♔c6 ♕c7#. Qara şahın sızması ilə birlikdə ağ vəzirin iki ağ atla oyunu daha ahəngdar şəkildə dörd halldə mövcuddur. Müəllif oyuna qara şahın sızması ilə daha iki həll əlavə edib.






# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023»
# ƏKS-MAT (S#)
# Hakim: Andrey Selivanov (Rusiya)

Hakimlik üçün müəllifləri məlum olmayan 10 anonim məsələ aldım. Kompüter yoxlamasından sonra, ciddi dual ilə olan **№8. Samir Alməmmədov** (S#17) yarışdan çıxarılır: 4.♕a6 ♔b8 5.d8♖ ♔c7 6.♖d7 ♔b8 7.♖b7 ♔c8 8.♖b6 ♔c7 9.♘e6 ♔d7 10.♖d6 ♔e7 11.♕b7 ♔d6 12.f8♕ ♔e5 13.♕b8 ♔f5 14.♘d4 ♕d4 15.♖g5 fxg5 16.♕f7 ♕f6 17.♕g6 ♕g6#.
Yarışın şərtlərinə uyğun olaraq üç qalib müəyyən etmişəm.

Qaliblər sırasına daxil olmayan məsələlərin şərhi.
**№1. Salman Cavadzadə** (♔a3/♔c4, S#4). 1…c6 variantında təhlükə təkrarlanır, ağların 3-cü və 4-cü gedişləri bütün variantlarda eynidir.
**№3. Vidadi Zamanov** (♔h2/♔h4, S#2). Ağ piyadaların yoxluğu gözəldir, amma mükafat üçün kifayət qədər məzmun yoxdur.
**№4. Vidadi Zamanov** (♔h1/♔h3, S#5). Yalançı təhlükəli tapşırıq, lakin həllin özü maraqsız və orijinal deyil.
**№5. Araz Alməmmədov** (♔f1/♔a7, S#3). Kobud giriş və eyni matla tamamilə maraqsız məsələ. Bu cür tapşırıqlar, yəqin ki, daha çox "əks-pat" kateqoriyasına aiddir.
**№10. Kənan Vəlixanov** (♔g3/♔b3, S#4). Xəyali oyun və həll variantlarında eyni oyun təəssürat yaratmır.

İlkin nəticədə Araz Alməmmədovun 1-ci yer tutmuş məsələsi orijinal olmadığına görə yarışdan çıxarılır. Sən demə, bu məsələ 2021-ci ildə keçirilən 9-cu FİDE Dünya kubokunda 2-ci tərifnamə qazanıb – https://www.wfcc.ch/wp-content/uploads/F-9FIDECUP-fin.pdf
Tanınmış bəstəçinin diqqətsizliyi, yarışın bir həftə gecikməsinə səbəb oldu. 2-ci və 3-cü yer tutmuş məsələlər bir pillə yuxarı qalxır, 3-cü yerə isə yeni məsələ əlavə olunur.

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 6-cı AZƏRBAYCAN KUBOKU, 2023»
# ƏKS-MAT (S#)

**9. Cahangir Nifdaliyev (İsmayıllı)**
6-cı Azərbaycan kuboku, 2023
1-ci yer



S#3 8+13

**7. Araz Alməmmədov (Qəbələ)**
6-cı Azərbaycan kuboku, 2023
2-ci yer



S#6 14+9

**2. Salman Cavadzadə (Gəncə)**
6-cı Azərbaycan kuboku, 2023
3-cü yer



S#3 9+8

**№9. Cahangir Nifdaliyev (İsmayıllı).** 1.♘d1! (2.♕e3+ ♔c4+ 3.♕e4+! ♗xe4#), 1…♔e2+ 2.♕c2+ ♔f3 3.♕d3+! ♗xd3#, 1…♔e4 2.♕c4+ ♔f3 3.♕d3+! ♗xd3#, 1…♗e4 2.♕c4+ ♔d2+ 3.♕c2+! ♗xc2#. Şahının təxribatı və qara şaha iki xananın verilməsi, iki variantda mat meydanında qara müdafiə vəzirin qurbanı ilə təhlükə və yanaşı xanalardakı məsələdə mat ilə əla bir giriş. Təəssüf ki, tematik variantlarda müəllif ağların 3-cü gedişini fərqləndirə bilməyib və yuxarı sağ küncdə daşların çoxluğu təəssürat yaratmır.

**№7. Araz Alməmmədov (Qəbələ).** 1.♗a1! – 2.♖e2+ ♔d3 3.♖ee1+ ♔c2 4.♘xa3+! ♖xa3 4.♕c4+ ♖c3 6.b5! zz, ♖xc4#, 1...c3 2.♕h1+ ♔d3 3.dxc3+ ♔c4 4.♘d6+! cxd6 5.♘xb6+ ♘xb6 6.♕d5+! ♘xd5#. Fərqli matlarla bitən, təhdid və variantları ilə əla girişi olan populyar üslublu məsələ. Təəssüf ki, daha yüksək yer üçün məzmun kifayət deyil.


## «SİRLİ PİYADA»

Əməkdar məşqçilər İLHAM ƏLİYEV (Sumqayıt) və ŞAİQ QULİYEV-in (Gəncə) yeni şahmat kitabı işıq üzü görüb. «SİRLİ PİYADA» kitabında debüt tələləri, oyunlar, kombinasiyalar, sonluq və etüdlərdən ibarət 600-dən artıq nümunə toplanıb.

AZƏRBAYCAN ŞAHMAT FEDERASİYASI «Sirli piyada» kitabını Uşaq Gənclər İdman Şahmat Məktəblərinə dərs vəsaiti kimi tövsiyə edib. Kitaba ön sözü Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi katibi, riyaziyyat üzrə elmlər doktoru, Professor, əməkdar müəllim, şahmat üzrə əməkdar məşqçi, Beynəlxalq hakim, Əməkdar bədən tərbiyəsi və idman xadimi BƏXTİYAR RÜSTƏMOV yazıb.

Kitab 5 bölmədən ibarətdir.
**1-ci bölmə:** «QREKO-dan KARLSEN-ə kimi». Bu bölmədə maraqlı formada piyadanın sirli dünyası göstərilib və şahmatçıların tipik səhvlərinə geniş yer ayrılıb.

**2-ci bölmə:** «DEBÜT TƏLƏLƏRİ». Bu bölmədə çoxsaylı nümunələrlə müxtəlif piyada vuruşlarının oyunun əvvəlində faciəyə səbəb olmasının şahidi olacaqsınız.

**3-4-5-ci bölmələr:** 3-cü bölmə - KOMBİNASİYA, 4-cü bölmə - SONLUQ, 5-ci bölmə - ETÜDLƏR.

Bu bölmələr müstəqil həll üçün təklif olunub. Burada «Zəhərli piyada» mövzusuna aid 500-ə yaxın tapşırıqları həll edib, hesablama texnikanızı və məntiqi düşüncənizi inkişaf etdirə bilərsiniz.
Kitab 200 səhifədən ibarətdir və ölçüsü 165x240-dır. Kitabda piyadaya aid çoxsaylı kəlamlarla da tanış ola bilərsiniz. Kitabın məşqçi-müəllimlər üçün əla dərs vəsaiti olacağını əminliklə söyləyə bilərik.
Kitabın qiyməti 12 manatdır. Topdan satış üçün məşqçi-müəllimlər müraciət edə bilər. Daha ətraflı buradan məlumat ala bilərsiniz: **https://www.facebook.com/ilhamaliev1967**

**Əlaqə üçün telefonlar:**
İlham Əliyev (Sumqayıt) (050) 515 40 99 whatsapp,
Şaiq Quliyev (Gəncə) (055) 327 07 17 whatsapp.